Ədəbiyyat qəzeti

24 3 aprel 2021-ci il

# Təyyar SALAMOĞLU - 60



Hörmətli Təyyar Salamoğlu!

Sizi - görkəmli alimi 60 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz 27 aprel 1960-cı ildə Sabirabad rayonunun Mürsəlli kəndində anadan olmusunuz. 1981-ci ildə APİ-nin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, doğulub boya-başa çatdığınız rayonun məktəblərində on il müəllim, dərs hissə müdiri vəzifələrində çalışmış, eyni zamanda qiyabi yolla aspirantura təhsili alaraq namizədlik dissertasiyası müdafiə etmisiniz.

1991-ci ildən bu günə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində ləyaqətlə çalışmaqdasınız. Filologiya elmləri doktoru, professorsunuz. 2010-cu ildə Bakı Qızlar Universitetində kafedra müdiri, elmi işlər üzrə prorektor vəzifələrində işləyərkən də müəllim, Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın Filologiya üzrə Ekspert Şurasının üzvü, sədr müavini və sədri kimi çalışarkən isə alim adını uca tutmusunuz. 2013-cü ildə ilin Prezident təqaüdçüsü olmuş, 2019-cu ildə AMEA-nın Ədəbiyyat İnstitutunda "İlin alimi" seçilmisiniz.

Respublikamızın ədəbi-elmi mühiti Sizi nüfuzlu ədəbiyyatşünas alim və tənqidçi kimi tanıyır. Siz 80-ci illərdə tənqid və ədəbiyyatşünaslığa gələn nəslin aparıcı nümayəndələrindən birisiniz. Azərbaycan ədəbiyyatını elmi-nəzəri, tarixi və metodoloji istiqamətlərdə araşdıran 19 kitabın, 200-ə qədər məqalənin müəllifisiniz. Məqalə və kitablarınızın elmi-ədəbi ictimaiyyət tərəfindən həmişə maraqla qarşılandığını və bu marağın Sizin əsərlərinizin novator mahiyyəti ilə bağlı olduğunu xüsusi vurğulamaq istəyirik.

Sizin məhsuldar yaradıcılığınız çoxistiqamətlidir. Azərbaycan uşaq ədəbiyyatı, mühacirət və repressiya şeiri, milli romanın tarixi inkişaf yolu, ədəbi tənqidimizin tarixi, ədəbiyyatımızın sovet dövrü, XIX əsrin sonu, XX əsrin əvvəllərində "izm"lərin estetikası, nümayəndələrinin yaradıcılığı və ən nəhayət, çağdaş ədəbi proseslə bağlı araşdırmalarınız ədəbiyyatşünaslığımızın və ədəbiyyatımızın irəliyə doğru hərəkətinə əsaslı təkan verməkdədir.

Sizin elmi və tənqidi təfəkkürünüz polemikaya meyillidir. Mükəmməl bir fərdi üsluba sahibsiniz. "Bədii mətn həqiqətləri" konsepsiyasından çıxış edərək ədəbiyyatımızın müxtəlif tarixi dövr və mərhələlərinə dair apardığınız araşdırmaların müstəqillik dövrü ədəbiyyatşünaslığımızın sovet ədəbiyyatşünaslıq inersiyasından xilas olmasında mühüm rol oynamaqda olduğunu əminliklə ifadə edə bilərik.

Hörmətli Təyyar müəllim, Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, pedaqoji və elmi fəaliyyətinizdə yeni uğurlar diləyirik.

**Azərbaycan Yazıçılar Birliyi**